**Biləsuvar Rayon Statistika İdarəsi tərəfindən**
**“Ümumdünya statistika günü” ilə əlaqədar tədbir keçirilmişdir.**

20 oktyabr 2025-ci il tarixində Biləsuvar rayonunda “Ümumdünya statistika günü” ilə əlaqədar tədbir keçirilib.

Tədbir iştirakçıları ilk öncə Ümummilli lider Heydər Əliyevin Biləsuvar rayonunda ucaldılmış abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyulub və xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyəti başçısının müavini Vəlahəddin Yunsurov, YAP Biləsuvar Rayon Təşkilatının sədri Kamil Qurbanlı, Biləsuvar rayon Ağsaqqalar şurasının sədri Akif Kazımov, idarə və təşkilatların rəhbərləri və ərazi üzrə icra nümayəndələri iştirak ediblər.

Rayon Gənclər evində davam edən tədbirdə Biləsuvar Rayon Statistika İdarəsinin rəisi Kazım Mənsimov çıxış edərək Ümumdünya statistika günü ilə əlaqədar tədbirə toplaşanlara göstərdikləri diqqətə görə öz minnətdarlığını bildirərək bu günün təsis edilməsində əsas məqsədin statistikanın cəmiyyətin inkişafında rolunu qeyd etmək, rəsmi statistikanın etibarlılığını, peşəkarlığını və faydasını nümayiş etdirmək, statistika mədəniyyətini, şəffaflığını və məlumat mübadiləsini təşviq etmək olduğunu qeyd etmişdir. Milli statistika sisteminin inkişafının məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu və sonrakı illərdə uğurla davam etdirilən islahatların rəsmi statistikanın inkişafına güclü təkan verməsini və ardıcıl olaraq altı dövlət proqramının uğurla icra edilməsini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Kazım Mənsimov tədbirin keçirilməsində göstərdiyi dəstəyə görə Biləsuvar Rayon İcra Hakimiyyənin başçısı cənab Faiq Qürbətova təşəkkürünü bildirdi.

Daha sonra Biləsuvar Rayon Statistika İdarəsinin rəis müavini Qəfər Mirzəyev, aparıcı məsləhətçi Arif Rəhmətov çıxış edərək idarənin fəaliyyət istiqamətləri, hüquq və vəzifələri, əhalinin demoqrafik göstəriciləri, təbii artımın azalma səbəbləri, sahibkarlar statistika ilə bağlı nələri bilməlidir mövzuları ilə bağlı tədbir iştirakçılarını məlumatlandırdılar. Biləsuvar Rayon Statistika İdarəsində 42 illik əmək fəaliyyəti olan veteran işçi Cəmilə Əliyeva çıxış edərək öz təsüratlarını tədbir iştirakçıları ilə bölüşdü.

Daha sonra Biləsuvar Rayon İcra Hakimiyyəti başçısının müavini Vəlahəddin Yunsurov, rayon Ağsaqqalar şurasının sədri Akif Kazımov, YAP Biləsuvar Rayon Təşkilatının sədri Kamil Qurbanlı çıxış edərək Ümumdünya statistika günü münasibəti ilə öz təbriklərini bildirdilər və statistikanın əhəmiyyətindən danışaraq bütövlükdə ölkə statistiklərinə uğurlar arzuladılar.









GƏNCLƏR BİZİM GƏLƏCƏYİMİZDİR!
Heydər Əliyev